# Bakı ilin ən maraqlı Qran prisinə evsahibliyi etdi

**Bakı Qran prisi gözlənilməz nəticələrlə yadda qaldı. Yarışdan əvvəl Formula 1 avtomobillərinin istehsalçılarından biri, “McLaren” şirkətinin və komandasının sərmayədarı Mansour Ojjehinin xatirəsi yad edilib. Daha sonra açılış mərasimi baş tutub. Reqlamentə əsasən, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Himnimizi Səbinə Babayeva və Vətən müharibəsinin qazisi Ataş Babayev səsləndirib.**

Doğma Bakının səmadan dron və helikopterlərlə çəkilən ümumi planının fonunda Azərbaycan himninin səslənməsi, ən önəmlisi də bu yayımın eyni anda dünyanın bir çox ölkəsində milyarddan çox insana xitab etməsi qürurverici an idi. Bu dünyanın nadir şəhərlərinə nəsib olan bir andır. Həmçinin, qeyd etmək yerinə düşər ki, açılış zamanı əllərində




Azərbaycan bayrağı dalğalandıran yerli və xarici vətəndaşlar zəfər simvolu olan “V” formasında düzülmüşdülər.

Startdan sonra üçüncü turda “Alpine Renoult” pilotu Esteban Ocon mübarizədən kənarlaşdı. Ümumilikdə, olduqca gərgin keçən Bakı Qran prisi “Red Bull” pilotu Serxio Peresin qələbəsi ilə yekunlaşdı. “Aston Martin”dən Sebastian Fettel ikinci, “Alpha Tauri”dən Pyer Qasli üçüncü yeri tutdular. Yarış zamanı baş verən maraqlı hadisələr və qəzalar barədə danışmadan, əvvəlki iki gün Bakıdakı sıralama turu və sərbəst yürüşləri və onların nəticələrini xatırlatmaq yerinə düşər.

Formula 1 Bakı Qran prisinin birinci günü yalnız sərbəst yürüşlərin keçirilməsinə baxmayaraq, izləyicilərə həyəcanlı anlar yaşatmışdı. Cari ildəki qızğın rəqabət Bakıdakı sərbəst yürüşlərin startı ilə “Ferrari” komandasını da öz ağuşuna çəkdi. Birinci gün keçirilən sərbəst yürüşlər nəticə etibarilə sıralamaya təsir etməsə də, əsas yarış günü trekdə keçəcək gərgin mübarizənin anonsu idi. Görünən o idi ki, “Red Bull” liderliyi əldən vermək istəmir və onlar həqiqətən də yarışqabağı sətiraltı işarə etdikləri çempionluq iddiasına yaxşı kökləniblər. Paytaxtımızın sürət həsrətinin bitdiyi, Bakı asfaltlarının F-1 superkarlarına qovuşduğu ilk gün hər iki sərbəst yürüşə “Red Bull”un pilotları liderlik etdilər. Belə ki, birinci sərbəst yürüş mərhələsində qalib olan, Maks Ferstappen beş Qran pridən sonra liderliyi əlində saxlamasının təsadüfi olmadığını sübut etdi. Bu yürüşdə ikinci və üçüncü yerləri müvafiq olaraq “Ferrari”nin iki pilotu Şarl Lekler və Karlos Sayns tutdular.








**(ardı 3-cü səhifədə)**

# Bakı ilin ən maraqlı Qran prisinə evsahibliyi etdi





(əvvəli 1-ci səhifədə)

İlk mərhələnin ardından sosial şəbəkələrdə qısa zaman ərzində trend olan "Ferrari" geri dönür, "Red Bull" çempion" başlıqlı paylaşımlar Formula 1 azarkeşlərinin hələ birinci sərbəst yürüşdən yarışlara fokuslandığını göstərirdi.

Daha sonra ikinci sərbəst yürüş mərhələsində isə "Red Bull"un digər pilotu Serxio Peres birinci oldu. Onun qalib olması "gözlənilməzlərin gözlənildiyi" Bakı Qran prisinin F-1 həvəskarlarına birinci sürprizi idi. Əlbəttə, bu yarışlar F-1 üçün həlledici mərhələ deyildi. Lakin məsələ ondadır ki, yarışın keçiriləcəyi şəhər trekindəki sərbəst yürüşlər, burada mövcud olan şəraitə, yollara kimlərin daha yaxşı hazırlaşdığını, kimin bu dövrəyə daha uyğun olduğunu göstərən başlıca nəticələrdəndir.

Qeyd edək ki, birinci sərbəst yürüşü lider kimi tamamlayan Ferstappen ikinci mərhələdə sadəcə öz komanda yoldaşından geri qalaraq ikinci oldu. "Ferrari"dən Karlos Saynz yenə üçüncü yerlə kifayətləndi.

Sərbəst yürüş mərhələlərindən sonra "Peres gücləndikcə "Red Bull" qarşısıalınmaz olacaq" fikri bütün Formula 1 ictimaiyyətinin gündəmində ən aktual məsələyə çevrildi. Nəzərə alsaq ki, onun komanda yoldaşı Ferstappen cari ilin lideridir, bu "Red Bull"un çempionluq iddialarını daha da konkretləşdirməsinə səbəb olacaq.

Növbəti gün üçüncü sərbəst yürüş, o cümlədən sıralama turları ilə əlamətdar oldu ki, bu da əsas yarış günü üçün qütb mövqeyini və ümumi düzülüşü müəyyən etdi. Üçüncü sərbəst yürüşü gözlənilmədən Piyer Qasli ("Alpha Tauri") lider tamamladı. Serxio Peres ikinci, Hamilton üçüncü oldu. Bu mərhələdən sonra sıralama turu başladı. Burada da gözlənilməz nəticələr qeydə alındı. "Ferrari" pilotu Lekler iki favoriti qabaqlayaraq qütb mövqeyini ələ keçirdi. Hamilton ikinci, lider Ferstappen isə yarışa üçüncü başlamaq haqqını əldə etdi. Sonuncu sərbəst yürüşün qalibi Qasli sıralamada dördüncü oldu.

Leklerin bu qələbəsi final mərhələsi üçün "Ferrari"ni ümidləndirdi. Bundan əlavə, sıralama turunda beşinci olan Karlos Saynz ("Ferrari") italyan komandasını Bakı qələbəsinə inandırdı.

## Bu, nə heç nə idi, nə də hər şey...

Karyerasının bəlkə də ən parlaq mövsümünü keçirən Maks Ferstappen ikinci günün sonundakı açıqlamalarında bir daha xüsusi qeyd etdi ki, önəmli olan mübarizədən qopmamaq, sona qədər savaşmaqdır. Daha sonra ilkin göstəricilərə münasibət bildirən Ferstappen əsas rəqibləri olan "Mercedes"lə aralarında sadəcə 1 saniyə fərq yarandığını, bunun isə o qədər də böyük olmadığını açıqladı.

Lakin məlumat qrupunun yanacaq yükləri başda olmaqla, bütün faktorları nəzərə alaraq rəqəmləri sıxmasından sonra bu fərq 0,58 saniyə olaraq dəqiqləşdi. Yaranan yeni rəqəm Ferstappenin haqlı olduğunu, boşluğun aradan qaldırılmasının mümkünlüyünü sübut etdi. Bütün bunlarla yanaşı, ilkin sərbəst yürüşlərin ardından yarış simulyasiyalarına nəzər saldıqda fərq dramatik şəkildə azalır. "Mercedes" dövrə başına 0,07 saniyə geri qalır ki, bu da yarışdakı mübarizənin daha kəskin olacağını göstərirdi. Buna baxmayaraq, əminliklə söyləmək olardı ki, "Red Bull" birinci sınaqdan üzüağ çıxmağı bacarmışdı və bu seçmə mərhələdəki əsas yarış üçün rəqib üzərində təsiredici üstünlük hesab edilirdi. Bu səbəbdən onlar yarışa ilkin mərhələdə istifadə etdikləri orta təkərlərlə çıxmaq üstünlüyünə sahib idilər. "Mercedes" isə o rahatlığa sahib olduğunu hiss edə bilməzdi.

Sərbəst mərhələlərin ardından komanda üzvləri üçün ayrılan qarajdan çıxarkən "Mercedes"in direktoru Toto Volff heç də xoşbəxt görünmürdü. Amma kim onu günahlandıra bilər? O, öz maşınlarının yarışlarda 1 və hətta 2 saniyə geri qalmasına öyrəşməyib. "Gümüş ox"ların texniki şefi Andre Şoulin ilk günü "ən böyük cümə" daha sonra isə tək dövrə tempinə işarə edərək "bəzi fərqlərə görə ən pis cümə" olaraq xarakterizə etdi. "Mercedes" təkərləri Monakodakı istiliyinə gətirmək üçün mübarizə apardı və bu məsələ, Bakıda bir daha onların gündəminə gəldi. "Mercedes"in pilotu Valteri Bottas isə qeyd etdi ki rezinləri dəyişmək üçün daha çox dövrəyə ehtiyac var. Komandanın dünyaca məşhur digər pilotu Luis Hamilton isə məyusluqla bildirdi ki, biz sadəcə olaraq yavaşıq. Bu açıqlamaların ardından Şoulin seçmə simulyasiyadakı templə bağlı fikirlərinə əlavə olaraq, normal mövqelərindən çox uzaq düşdüklərini, mütləq əhəmiyyətli dəyişikliklər etməli olduqlarını qeyd etdi. Lakin ümumi nəticələrə nəzər saldıqda, böyük planda "Mercedes"in o qədər də pis vəziyyətdə olmadığı, yarış üçün hələ də ən böyük favoritlərdən biri kimi qaldığı aydın idi.

## "Ferrari" bir daha qalmaqala səbəb oldu

"Ferrari" Monakodakı qütb mövqeyinin və ardından yarışda ikinci yeri tutduqları uğurlu Qran pridən sonra Bakıya gələrkən öz şanslarını o qədər də böyük qiymətləndirmirdi. Lakin komandanın pilot cütlüyü Bakıdakı tempin gözlədiklərindən də yaxşı keçdiyini söyləsələr də, qəribə bir iddia səsləndirdilər. Onların fikrincə, "McLaren" əlindəki bütün imkanlardan istifadə etməyib və yarış günü hər şey indikindən fərqli olacaq. Cümə





və şənbə günlərinin nəticələri isə onu göstərirdi ki, yarışda onlardan uğur gözləmək olardı. Belə ki, pilotların ən yaxşı mini sektorlarını və ən yaxşı zamanlı dövrə əldə etmək üçün bir araya gətirilən göstəricilərinə görə Karlos Saynz 0,46 saniyə fərq ilə ən sürətli idi. Bu göstəriciyə görə, "Alpha Tauri" komandasının pilotu Pyer Qasli ikinci, Ferstappen üçüncü, Lekler ("Ferrari") isə beşinci yeri tuturdular. Nəticələr Qran pri yarışında çox gərgin mübarizə olmadığını göstərirdi. "Ferrari" ilk iki pillədə olan "Red Bull" və "Mercedes"lə yanaşı, " McLaren"lə də mübarizə aparmalı olacaqdı ki, bu da onların üçüncü yer şansları üçün vacib idi. Sıralama turundakı qələbə isə Lekler və ümumilikdə, komandanı podium üçün həyəcanlandırmışdı. Lakin elə ilk pit-stopda liderliyi ələ keçirən Ferstappen qələbənin və ya podiumun elə də asan almayacağını "Ferrari"yə xatırlatdı.

## "McLaren" də qabaq sıralara iddialı idi

Komandanın aparıcı üzvü Lando Norris ilk sərbəst yürüş günündən sonra demişdi ki, onlar hələ də yarışın içindədirlər. Bildirmişdi ki, bir qədər kefsiz görünsə də, əslində, ilk gündən sonra əhvalı yaxşıdır və növbəti yarış üçün özünə çox güvənir.

Noris cümə gününün nəticələrinə görə "Red Bull" və "Ferrari"dən çox geri qaldıqlarına baxmayaraq, sıralama üçün iddialı olduqlarını da qeyd etmişdi.

Bundan əlavə, onu da qeyd etmək lazımdır ki, "McLaren" cümə günləri üçün daha çox yanacaqdan istifadə etdiyinə görə, indidən nəticələri təxmin etmək çətindir. Əlbəttə, bu yarışın nəticəsinə böyük təsir edən amillərdəndir.

Daniel Rikkardo isə tur sürətinə görə, daha pis nəticə göstərməsinə baxmayaraq, ümumilikdə, maşına alışması və Bakı trekini mənimsəməsi üçün uğurlu sayıla biləcək sərbəst mərhələni geridə qoymuşdu. O da konfrans zamanı komanda yoldaşı kimi, yarışda daha yaxşı nəticə əldə edəcəyinə inandığını dedi. Ən önəmlisi isə odur ki, bu, komanda üçün uğurlu addım hesab edilməlidir. "Red Bull"dan 0,48 saniyə geridə olsalar belə, sonrakı mərhələdə uğurlara imza ata bilərdilər.

Nəticədə onlar final mərhələsində podiumda olmasalar da hər ikisi ilk onluğa daxil ola bildilər ki, bu da komandanın hesabına yeni xallar əlavə edilməsinə səbəb oldu. Məlum olduğu kimi, F-1-də sadəcə ilk 10 yeri tutan pilotlar komandasına xal qazandırır.

## "Alpha Tauri" sübut etdi ki, liderlərlə rəqabət aparmaq gücündədir

Daha əvvəl də qeyd etdiyimiz kimi, F-1-də orta mövqeli komandalar illər keçdikcə liderlər qrupuna yaxınlaşmaqdadırlar. "Alpha Tauri" də belə komandalardandır.

Yeri gəlmişkən diqqətə çatdıraq ki, cümə günü keçirilən sərbəst yürüşlərdə ilk 8 pillədə 6 fəqrli komandanın pilotu yer alırdısa, favorit hesab edilən "Mercedes" bu qrupa daxil deyildi. "Alpha Tauri"nin pilotu Pyer Qasli karyerasının ən yüksək nəticəsinə nail olaraq ilk günü P5 və P6 olaraq tamamlamağı bacarmışdı.

Komandanın bu yüksəlişi üst sıralarda olan kollektivlər üçün həqiqi təhdid qaynağı hesab edilməlidir. Belə ki, italyan komandasından cəmi 0,03 və daha sonrakı tur üçün 0,02 saniyə geri qalan "Alpha Tauri" liderlərlə rəqabət apara biləcək gücdə olduğunu sübut etdi.

İkinci sərbəst yürüş günü və sıralama turu da Qasli üçün uğurlu keçdi. Və bütün bunların cəmində Piyer Qasli bazar günü keçirilən əsas finalda podiuma çıxmağı bacardı. Belə ki, 51 dövrə boyunca heç bir böyük xətaya yol verməyən Piyer Qasli və komandası nəticədə yarışı üçüncü yerdə tamamladı. Bu onun üçün çox böyük uğurdur və Bakı Qaslinin, eləcə də "Alpha Tauri"nin xatirəsində hər zaman xüsusi yerə sahib olacaq.

Qeyd edək ki, onun komanda yoldaşı, yaponiyalı pilot Yuki Tsunoda da yeddinci yeri tutaraq, komandasına xal qazandıra bildi. Beləliklə yarış "Alpha Tauri" üçün uğurla yekunlaşdı.

Qaslinin üçüncü olması, həqiqətən, şansın da köməyi ilə reallaşan hadisə idi. Belə ki, o uğurlu yarış keçirməsinə baxmayaraq son turlara yaxınlaşarkən sadəcə beşinci sırada idi. Yarış həyəcanının ən pik səviyyəyə çatdığı bir vaxt "Red Bull" komandasının lideri gözlənilməz qəza yaşadı. Belə ki, Qran prinin bitməsinə 3 tur qalmış Maks Ferstappen açıq fərqlə lider olduğu halda sol arxa təkərin qəfildən partlaması ilə yerində bir neçə dövrə vuraraq divara çırpıldı. Xoşbəxtlikdən xəsarət almasa da, Ferstappen çempionluğa sadəcə üç dövrə qalmış yarışı dayandırmağa məcbur oldu. Belə olan halda yolun təmizlənməsi və təkərlərin dəyişdirilməsi üçün qırmızı bayraqlar qaldırıldı. Proses "Mercedes" pilotu Hamiltonun maşınının mühərrikində və qabaq qanadında yaranan nasazlıqların həll edilməsinə görə yarım saatdan bir qədər çox çəkdi. Yenidən "restart" verilməsi üçün pilotlar başlanğıc nöqtəsinə lakin bu dəfə davam edən yarışda olduqları pillədə düzülmək üçün çağırıldı. Yarışın bitməsinə üç dövrə qalsa da, bir dövrə isinmə üçün sərf ediləcəyindən əsas iki tur həlledici oldu. Restart zamanı qütb mövqeyində olan "Red Bull" un digər üzvü Serxio Peres ikinci sırada başlayacaq yeddiqat dünya çempionu Hamiltonu necə önə buraxmamağın planlarını qurduğu bir vaxt bəlkə də Formula 1 tarixinin ən qəribə hadisələrindən biri baş verdi. Belə ki, yeddiqat dünya çempionu həyəcanına qalib gələ bilməyərək elə çıxışdaca səhvə yol verdi. İlk bir neçə yüz metrdə az qala Serxio Peresi ötməyi bacarsa da ilk döngəni qaçıran Hamilton düz davam edərək nəinki liderliyi hətta ilk onluğa girmək şansını da itirərək "Mercedes" azarkeşlərini məyus etdi.

Beləliklə, son 4 tura beşinci girən Piyer Qasli birdən-birə üçüncü yerə yüksəldi və elə bu pillədə də yarışı tamamladı. Bütün bunlar, "gözlənilməzlərin gözlənildiyi" Bakı Qran prisinin bu adı boşuna almadığını göstərdi. Lakin builki yarış daha bir fantastik nəticə ilə yadda qaldı. Belə ki, "Aston Martin" pilotu, dördqat dünya çempionu Sebastian Fettel sıralama turundakı onbirinci nəticədən sonra tam 9 pillə irəliləməyi bacararaq ikinci oldu. Hələ ilk pisstopdaca 4 pillə irəliləyən pilot son turlarda inanılmaz əzmkarlıq nümayiş etdirdi. Təsadüfi deyil ki, Formula 1-in rəsmi saytının keçirdiyi səsvermədə Bakı Qran prisində ən yaxşı çıxış edən pilot da məhz Fettel seçildi. Böyük fərqlə birinci olan alman pilotu səsvermədə Qran prinin qalibi olan meksikalı Perez və şanssız qəza ilə yarışdan kənarda qalan Ferstappen müşayiət etdi. Ferstappenin qəzasına baxmayaraq "Red Bull" liderliyini qoruyub saxlaya bildi. Favoritlərdən olan "Mercedes" isə xal qazanmadı.

Bakı Qran prisi həm baş verən maraqlı hadisələr, həm də gözlənilməz nəticələrlə cari mövsümün ən yaddaqalan yarışı oldu. Və elə görünür ki, mövsümü yekununda da bu dəyişməyəcək. Nəticəni qeyri-adi edən birinci nüans o idi ki, Bakı Qran prisində ilk üç pillədə qərarlaşan heç bir pilot bir gün əvvəl keçirilən sıralama turunda üçlüyə daxil ola bilməmişdi.

"Gözlənilməzlərin gözlənildiyi" Bakı treki üçün əvvəlcədən təxmin edilə biləcək yeganə məqam BŞH-nin yarışlara yüksək səviyyədə evsahibliyi etməsi idi ki, hadisələrin gedişi bu təxmini doğru çıxardı. Bakı Şəhər Halqası yarışlara yüksək səviyyədə evsahibliyi etdi. Bu trek elə qurulub ki, izləyicilər UNESCO-nun Ümumdünya Mədəni İrsi Siyahısına daxil olan İçərişəhəri, Bakının müasir memarlıq nümunələrini və Xəzəri şəhərimizlə birləşdirən, gözoxşayan sahilboyu mənzərəni görə bilirlər.

Məlum olduğu kimi, bu layihənin müəllifi bütün müasir Formula 1 treklərinin memarı olan Herman Tilkerdir. İnanırıq ki, BŞH-nin idarə və texniki heyəti daha sonrakı illərdə də bu uğuru təkrarlamağı bacaracaq və Formula 1 Bakı Qran prisi növbəti ildən öz azarkeşlərinə canlı olaraq qovuşacaq.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 iyun.- S.1;3.